# YAP qələbələrimizin mənbəyidir

**Yeni Azərbaycan Partiyasının yaranması ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən ictimai-siyasi hadisələrdən irəli gələn tarixi zərurət idi. Müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın ən çətin, ciddi sınaqlarla üz-üzə qaldığı bir vaxtda məhz YAP xalqımızın arzu və istəklərinin ifadəçisi kimi siyasi mübarizə meydanına qədəm qoydu. "Yeni, müstəqil Azərbaycan uğrunda!" şüarı ilə siyasi mübarizə meydanına atılan YAP ötən 23 ildə Azərbaycan dövlətçiliyinin güclənməsinə, xalqımızın rifah halının yüksəlməsinə böyük töhfələr vermişdir.**



Müstəqilliyimizin ilk illərinə diqqətlə nəzər saldıqda açıq-aşkar görürük ki, həmin dövrdə hakimiyyət dəyişiklikləri və daxili siyasi qarşıdurmanın dərinləşməsi nəticəsində ölkədə böhran vəziyyəti qorxulu həddə çatmışdı. Belə bir ağır zamanda xalqımız ümid yeri axtarır, xilaskarın kim ola biləcəyini düşünürdü. Təbii ki, belə bir ümid yeri ancaq dünya səviyyəli siyasətçi və dövlət xadimi, o dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri vəzifəsində çalışan, ümumxalq sevgisinə və hörmətinə malik olan Heydər Əliyev idi. Bu səbəbdən də Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar mətbuat vasitəsilə ona müraciət ünvanladılar.

Partiyanın təsis konfransı1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi, ulu öndər Heydər Əliyev YAP-ın Sədri seçildi. Beləliklə, Azərbaycanda güclü və sağlam dayaqlara söykənən bir partiyanın əsası qoyuldu. Partiya qısa müddətdə geniş şöhrət qazanaraq sağlam qüvvələri öz ətrafında birləşdirə bildi. 1993-cü ildə partiyanın sədri Heydər Əliyevin Prezident seçilməsi ilə YAP-ın həyatında yeni dövrün əsası qoyuldu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi və bundan sonra o, iqtidar partiyasına çevrilərək ölkədə dövlət quruculuğu prosesində yaxından iştirak etdi.

Yeni Azərbaycan Partiyasının 1999-cu ilin dekabrında və 2001-ci ilin noyabrında keçirilən I və II qurultaylarında vacib qərarlar qəbul edildi. YAP-ın II qurultayında partiyanın Nizamnaməsinə dəyişikliklər edildi və sədrin yeni təsis olunan birinci müavini vəzifəsinə yekdilliklə cənab İlham Əliyev seçildi. Qurultay partiyanın rəhbər orqanlarını - 108 nəfərdən ibarət Siyasi Şura üzvlərini və onların arasından 26 nəfərdən ibarət İdarə Heyətini seçdi. YAP bu gün də hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu ideyalarını həyata keçirmək, ölkədə sivil dəyərlər, demokratik prinsiplər əsasında hərtərəfli inkişafa nail olmaq, insan hüquq və azadlıqlarının təminatı, liberal dəyərlərə söykənən güclü və sosialyönümlü iqtisadiyyat, sosial ədalət və hər bir Azərbaycan vətəndaşının təminatlı rifahı uğrunda mübarizə aparır.

Ulu Öndərin ən böyük tarixi xidmətlərindən biri də odur ki, o, xalqa İlham Əliyev kimi praqmatik siyasi lider, müdrik rəhbər, sadiq davamçı bəxş etdi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət məhz ulu öndər Heydər Əliyev siyasi kursunun davamıdır. Hazırda dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətlər sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunmasında və inkişaf etdirilməsində YAP-ın xidmətləri danılmazdır. YAP Azərbaycan dövləti ilə paralel fəaliyyət göstərib, inkişaf edib. Bu baxımdan da əldə olunan bütün nailiyyətləri həm də YAP-ın uğurları kimi qeyd etmək lazımdır.

Bu gün ölkəmizə səfər edən hər bir əcnəbi qonaq paytaxtımız Bakıda gedən sürətli inkişafa heyran qalır. Hazırda YAP-ın hər bir üzvü təmsil olunduğu siyasi partiyanın bu inkişafda oynadığı xüsusi roldan qürur hissi keçirir. Bu gün YAP ümumxalq partiyasına çevrilmişdir və onun üzvlərinin sayı 670 min nəfərə yaxındır. Partiyanın gücü təkcə onun üzvlərinin sayında deyil, həm də xalqın bu partiyaya sevgisindən, inamından irəli gəlir. Belə bir partiyanın mövcudluğu isə özü böyük uğurdur və gələcəyə inamdır. Bütün bunlarla yanaşı, YAP hazırda MDB məkanında ən böyük siyasi təşkilatlardan biridir. YAP-ın beynəlxalq əlaqələri çox genişdir, müxtəlif ölkələrin hakim partiyaları ilə sıx münasibətləri vardır. Bu da onu göstərir ki, partiyamız regionda və dünyada çox böyük siyasi nüfuza malikdir.

Bu gün Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, YAP sədrinin müavini Mehriban xanım Əliyeva Azərbaycanı dünyada daha geniş tanıtmaq üçün möhtəşəm işlər görür. O, nəinki ölkə daxilində nəhəng layihələrin həyata keçirilməsində ciddi uğurlara imza atır, hətta xarici ölkələrdə də Azərbaycan mədəniyyətini, tarixini, incəsənətini, ədəbiyyatını təbliğ edir. Dünyanın müxtəlif yerlərində Mehriban xanım Əliyevanın və onun rəhbəri olduğu Heydər Əliyev Fondunun sayəsində Azərbaycan layiqincə tanınır. Mehriban xanımın təhsil, səhiyyə sahələrinin inkişafındakı xidmətləri də cəmiyyətimiz tərəfindən yüksək qiymətləndirilir.

YAP-ın bu gün ölkəmizdə qazandığı uğurlar, əldə etdiyi nailiyyətlər, ölkəmizin ictimai-siyasi həyatında malik olduğu ciddi mövqe bu mənada onunla da əlaqədardır ki, partiya daim yeniləşir, müasirləşir. Bu nəhəg siyasi təşkilatın yaranma tarixi dərinləşdikcə onun yaradıcısı, ilk əsasnamə və məramnaməsinin müəllifi Heydər Əliyevin uzaqgörənliyi, böyüklüyü, təkrarolunmaz şəxsiyyəti daha da aydınlaşır.

YAP xalqın partiyasıdır. Daim xalqa xidmət edir, milli maraqlarımızın keşiyində durur və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə xalqımızı daha da işıqlı gələcəyə aparır. Biz inanırıq ki, Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacaq, xalqımızın yaşayış səviyyəsi daha da yüksələcək, ölkəmizin beynəlxalq aləmdəki səsi daha gur eşidiləcək. Ən ağrılı problemimiz olan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn tələbləri çərçivəsində öz həllini tapacaqdır. Bütün bunları isə Azərbaycanda ən güclü siyasi təşkilat olan Yeni Azərbaycan Partiyası özünün sınanmış rəhbəri, Prezident İlham Əliyevin liderliyi ilə reallaşdıracaqdır. Ona görə də qətiyyətlə deyə bilərik ki, YAP müasir tariximizin böyük fenomeni olaraq qələbələrimizin mənbəyi və cəmiyyətimizin aparıcı qüvvəsidir.

**Zahid Rza,**
***"İki sahil"***